**DİNŞÜNASLIQ.**

UOT 82

**Gülağa İsmayılov**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant*
ismayilov.gulaga@mail.ru

# HƏDİSLƏRİN TƏDVİN VƏ TƏSNİFİ

**Açar sözlər:** *Hədis, tədvin, təsnif, Bağavi, Əsbahi, Küleyni*
**Ключевые слова:** *Hadith, composition, classification, Bagavi, Asbahi, Kulayni*
**Key worlds:** *Хадис, сочинение, классификация, Багави, Асбахи, Кулайни*

Heç şübhəsiz ki, hədis İslam dinində dini təfəkkürün və hökmlərin Quranikərimdən sonra ikinci əsas mənbəsidir. Elə bu səbəbdəndir ki, hələ səhabələr dövründə hədisə böyük önəm verilmiş və onların yazılıb qorunmasına, gələcək nəsillərə ötürülməsinə böyük zəhmət sərf edilmişdir. Təəssüflər olsun ki, hədislər ilk dövrlərdə rəsmi şəkildə yazılıb bir araya gətirilməmişdir. Əlbəttə ki, qeyri-rəsmi şəkildə olsa da hədislər yazılmış və qorunaraq sonrakı dövrlərə intiqal edilmişdir. Bunun bariz misalı bəzi səhabələrin Peyğəmbərdən (s) eşidib yazdıqları və hədis ədəbiyyatı tarixində "Səhifə" deyə adlanan yazılardır. Şükrlər olsun ki, sonrakı dövrlərdə hədislərin rəsmi yazılması və bir araya toplanması işi gerçəkləşmişdir. Məlum olduğu kimi, xülafai-raşidin dövründə (632- 661) hədislərin yazılması işinə rəsmi şəkildə başlanmamışdır. Hətta bu işə nəinki rəsmi şəkildə başlamaq, hədislərin özünü belə yazmaq və ya nəql etmək əvvəlki iki xəlifənin dövründə qadağan edilmişdir. İslamın ilk xəlifəsi Əbu Bəkr (632-634) öncə bəzi hədisləri toplamış sonra da onları yandırmışdı (1,5). Həmçinin, ikinci xəlifə Ömər bin Xəttab (634-644) hədislərin rəsmi yazılıb bir araya gətirilməsinə qərar vermiş, lakin sonradan bu qərarından daşınaraq hədislərin rəvayət edilməsini belə qadağan etmişdir. Ürvə bin Zübeyr rəvayət edir: "Xəlifə Ömər bin Xəttab hədislərin yazılması haqqında səhabələrin fikirlərini öyrəndi. Onlar bu görüşə qatıldılar. Xəlifə Ömər tərəddüd içərisində olduğu üçün bu iş bir ay çəkdi. Nəhayət o, bir gün gəti qərarını verərək dedi: "Bildiyiniz kimi, hədislərin yazılmasını sizlərə ərz etmişdim, sonra düşündüm və bu qərara gəldim: Sizdən öncə əhli-kitabdan bəziləri Allahın kitabından başqa şeylər yazmışlar və onlara əhəmmiyyət verərək Allahın kitabını bir tərəfə buraxmışlar. Allaha and içirəm ki, mən onun kitabını bir şey ilə əsla qarışdırmaram" (2, 50, 64).

Hədislərin tədvininə gəldikdə isə Tədvin dedikdə, müxtəlif səhabələr tərəfindən rəvayət edilmiş hədisləri yazıb bir araya toplamaqla yanaşı, başqa-başqa səhabələr tərəfindən yazılmış səhifələri toplayıb bir araya gətirmək nəzərdə tutulur. Hədislərin tədvini zaman baxımından hicri I əsrin lap sonları, II əsrin isə əvvəllərinə aiddir –G.İ.) demək lazımdır ki, bu iş səhabələr yox, rəsmi şəkildə tabeunlar dönəminə məxsusdur. Məlum olduğu kimi, hədislərin yazılması (kitabətül-hədis) ilə

tədvini arasında müəyyən fərqliliklər vardır. Ümumiyyətlə tədvin lüğətdə “dəvvənə” felindən əmələ gəlib, “kitab halına salmaq”, “toplamaq” deməkdir. Hədis elmindəki mənası isə “Hədislərin rəsmən yazılıb kitab halına salınması” deməkdir. Bəzi alimlər hədislərin tədvini ifadəsini belə tərif etmişlər: “Hədislərin hamısına şamil olan və dövlət əli ilə yürüdülən ikiknci hicri əsrdəki yazma fəaliyyətidir” (3, 106). Hədislərin rəsmi tədvini, yəni yazılıb kitab halına salınması hicri II əsrin əvvəllərində (miladi VIII əsrin əvvəlləri) olmuşdur. Bu işə başlamaq məşhur əməvi xəlifəsi Ömər bin Əbdüləziz (m.717-719) tərəfindən rəsmiləşdirmişdir. Bütün mənbələrə görə rəsmi və sistemli bir tədvin fəaliyyəti hicri birinci əsrin sonları, ikinci əsrin əvvəllərində yaşamış xəlifə Ömər bin Əbdüləzizin adı ilə bağlıdır. O, xəlifə təyin edildikdən bir müddət sonra sünnəni bilən səhabə nəslinin aradan getdiyini görüb və bununla da Peyğəmbər (ə) sünnəsinin məhv olmasından əndişə edərək hədislərin yazılıb bir araya toplanması haqqında rəsmi göstəriş vermişdi. Xəlifə hədislərin tədvin edilməsi üçün tabeçiliyində olan vali və əmirlərə məktublar göndərmiş və müxtəlif bölgələrdə yaşayan alimləri bu işə təşviq etmişdir. Onun göndərdiyi məktubların biri də Mədinə valisi Əbu Bəkr bin Həzmə olmuşdur. Bu məktubun mətni müxtəlif hədis ədədiyyatına aid olan kitablarda mövcuddur. Həmin məktubun mətni belədir: “Peyğəmbərin (ə) hədislərindən nə varsa araşdır, topla və yaz. Mən elmin (hədislərin) yox olmasından və alimlərin tükənməsindən qorxuram. Bu iş edilərkən sadəcə Peyğəmbərin (ə) hədisləri qəbul edilsin. Alimlər hər kəsə açıq olan yerlərdə oturub tədrislə məşğul olsunlar və elmi yaysınlar, bilməyənlərə öyrətsinlər. Çünki elm gizli qalmasa yox olmaz” (4, 33 ).

Xəlifəinin bu rəsmi göstərişindən sonra bölgə valiləri yazılan hədisləri dəftər halında xilafət mərkəzinə göndərmişlər. İbn Şihab əz-Zühri rəvayət edir: “Ömər bin Əbdüləziz sünnənin cəm edilməsini əmr etdi. Biz də onu dəftər-dəftər yazdıq. Ömər bin Əbdüləziz hakimiyyəti altında olan hər bir yerə bunlardan bir dəftər yolladı ” (5, 109). Əməvi xəlifəsinin qeyd olunan rəsmi fərmanından irəli gələn bu işdə hədis yazanlar təkcə Məhəmməd Peyğəmbərin (ə) deyil, o cümlədən səhabə və tabeundan gələn xəbərdəri də qələmə almışlar. Həmçinin, hədisləri tədvin edən zaman hədislərin bütün növünün (səhih, həsən, zəif) bir-birlərindən fərqləndirmədən bir yerə toplamışlar.

Belə ki, ərəb dilində olan “təsnif” kəlməsi lüğətdə “sinifləndirmək”, “eyni cinsdən olan şeyləri bir araya gətirib digər cinslərdən ayırmaq” mənalarındadır. Bu sözün hədis elmindəki mənası isə hədisləri mövzularına görə ayırıb eyni mövzudakıları bir bab (fəsil) içində toplamaq deməkdir (5, 429). Hədis tarixindən bizə məlumdur ki, hədislər Məhəmməd Peyğəmbərin (s) dövründə və ya onun vəfatından bir az sonra səhabələr tərəfindən yazılmış (kitabətül-hədis), daha sonra isə xəlifə Ömər bin Əbdüləziz tərəfindən rəsmi fərmanla ibn Şihab əz-Zühri (h.58-124) tərəfindən toplanıb tədvinül-hədis yəni, kitab halına salınmışdır. Hədislər tədvin edildikdən dərhal sonra təsnif dövrü başlamışdır. Çünki tədvin edilən hədis kitablarında hər hansı bir hədis axtarıb tapmaq çətin olduğundan təsnifə böyük ehtiyac duyulmuşdur. Buna görə də hədis alimləri hədislərin toplanıb yazıldığı kitablarda yer alan hədisləri fiqhi bablara görə təsnif etmişlər. Fiqh bablarına görə təsnif edilən hədis əsərlərinin bir qisminə “sünənlər”, bir qisminə “camilər”, digər bir qisminə isə “müsənnəf” adı verilmişdir. Bunlarla yanaşı “müsnəd” deyilən hədis

əsərləri də vardır ki, bu qrup əsərlərdə yer alan hədislər fiqhi bablara görə deyil, onları rəvayət edən səhabə adlarına və ya məşhur bir şeyxin rəvayətləri olaraq təsnif edilmişdir. Sünən adı altında təsnif edilən hədis əsərlərində fiqhin müamilat, ibadət və s. mövzuları haqqında hədislər yer tutur. Camilər də sünən kitabları kimi fiqhi mövzuları ehtiva etməkdədir. Amma camilər sünənlərdən fərqli olaraq fiqhdən kənar şeyləri də, o cümlədən Quranın fəzilətləri, Quranın təfsiri, Məhəmməd Peyğəmbərin (s) həyatı, keçmiş peyğəmbərlərin əhvalatlarını ehtiva edən hədisləri də içinə almaqdadır. Müsənnəflər isə sünənlərə çox oxşar hədis əsərləridir. Lakin onları sünən və camilərdən fərqləndirən xüsusiyyət ehtiva etdikləri mövzuların sünənlərdən çox, camilərdən az olmasıdır. Yəni, müsənnəf adını daşıyan əsərlər sünən adlı əsərlərə nisbətən daha artıq mövzuları, cami adlı əsərlərə nisbətən isə daha az mövzuları ehtiva etməkdədir.

Hədis tarixində hədisləri ilk təsnif edən şəxslər haqqında məlumatlar vardır. Dirayə elminə aid ilk əsəri yazan alimlərdən biri olan Rəmahürmüzü (öl. H. 360) təsnif haqqında aşağıdakı məlumatı verir: “Bildiyimə görə hədisləri ilk dəfə təsnif edib bablara ayıran kimsə, Bəsrədə ər-Rabi ibn Şübeyl (öl. h. 160), Səd bin Əbi Arubə (öl. h.156), Yəməndə Əhd deyə adlandırılan Xalid bin Cəmil və Mömər bin Raşid (öl. h.153), Məkkədə İbn Cüreyc (öl. h.150), Kufədə Süfyan əs-Səvri (öl. h.161), Süfyan bin Üyeynə (öl. h.198), Şamda əl-Vəlid bin Müslüm (öl. h.195), Xorasan və Mərvdə Abdullah bin Mübarək (öl. h.181) və b. olmuşdur” (6, 430).

Məşhur hədis alimlərindən olan Tirmizi hədislərin ilk təsnifini hicri II (miladi VIII) əsrdə olduğunu bildirdikdən sonra yazır: “Hədislərin təsnifinə çalışıb bu xüsusda rəhbərlik edən bir çox hədisşünas tanıyırıq: Hişam bin Həssan (öl. h.147/m.764), Əbdülməlik bin Əbdüləziz bin Cüreyc (öl. h.150/m.767), Malik bin Ənəs (öl. h.179/m.795), Həmməd bin Sələmə (öl. h.167/m.783), Abdullah bin Mübarək (öl. h.181/m.797) və daha bir çox elm adamları müsənnəf əsərlər meydana gətirdilər. Beləcə, bunlar hədislərin təsnifində öndərlik etdilər” (7, 304-305).

Hədislərin təsnifi ilə bağlı söz açan Əbu Talib əl-Məkki (öl. h.386/m.986) təsnif ədəbiyyatının başlanğıcını belə müəyyən edir: “Bu müsənnəf kitablar hicri 120 və ya 130-cu illərdən (m.738-748) sonra ortaya çıxmışdır. İslamda ilk müsənnəf əsərlərin İbn Cüreycin hədislərə dair kitabı ilə, Mücahid, Əta və İbn Abbasın müasirləri tərəfindən Məkkədə meydana gətirilən bəzi təfsir kitabları olduğu söylənilir. Sonra Mömər bin Raşid gözəl şəkildə və müəyyən bablar halında sünən topladı. Malik bin Ənəs “Müvəttə”ni Mədinədə ortaya qoydu…”(8, 324-325).

Xülasə olaraq bunu demək kifayətdir ki, hicri II əsrdə hədis alimləri müxtəlif adlar altında əsərlər meydana gətirmişlər. Ortalığa çıxan əsərlər əsasən iki ana sistem altında olmuşdur. Bunlardan biri, hədisləri rəvayət edən səhabə ravilərin adlarına görə (alər-Rical), digəri isə mövzularına görə (aləl-Əbvab) təsnif edilmişdir.

Bildirmək istəyirik ki, hədis ədəbiyyatı tarixində hicri II (m.VIII) əsrin özünəməxsus önəmi vardır. Çünki bu əsrdə iki mühüm məsələ – tədvin və təsnif məsələsi öz həllini tapmışdır. Belə ki, əvvəlcədən səhifələr üzərində olan hədislər cəm edilib bir araya gətirilmiş və bunun ardınca da bir yerə toplanıb yığılan hədislər təsnif edilmişdir.

Belə ki, bu dövrdə yazılan əsərlər içərisində ən məşhurları və dövrümüzədək gəlib çıxanları arasında hicri II əsərin ən görkəmli şəxsiyyətlərindən və

hədisşünaslarından biri Malik bin Ənəs bin Əbi Amir əl-Əsbahinin (h.93/m.709) "Müvəttə" əsərini, bu əsrin nəhəng elm sahiblərindən biri biri olan Məhəmməd bin İdris əş-Şafeinin (h.150/m.767) "ər-Risalə əl-qədimə", "İxtilafül-hədis", "Müsnəd" əsərlərini, həmən əsrin məşhur hədisşünaslarından biri sayılan Süfyan bin Üyeynə bin Meymun əl-Hilalın "Müsənnəf" əsərini (h. 107/m.722) və Mömər bin Raşidin "Cami" əsərini (h.152/m.769), məşhur hədisşünas və fəqihlərindən biri Abdullah bin Vəhb bin Müslüm əl-Kürasinin (h.107/m.813) "Cami" əsərini nümünə gətirmək olar (9, 92).

Sonrakı bir dövr olan hicri III əsr isə hədisşünaslıq tarixində ən məhsuldar dövrlərdən biri kimi xarakterizə edilir. Çünki bu dövrdə hədis ədəbiyyatı hicri II əsrdə baş vermiş bəzi ciddi hadisələr nəticəsində yeni inkişaf mərhələsinə daxil olmuşdur. Belə ki, hicri III əsrdə hədis ədəbiyyatı əvvəlki əsrdə yazılan hədis kitabları üzərində yüksəlirdi. Bu dövrdə yaşayan hədisşünaslar əvvəlki dövrdə yaranan zəngin irsdən bacarıqla istifadə edir, hədisləri daha da dərindən saf-çürük edərək öz əsərlərinə alırdılar. Həqiqətən hədis alimləri haqlı olaraq hicri III əsrdə yazılan hədis əsərlərini yeni keyfiyyətlərinə görə fərqləndirirdilər. Bu keyfiyyətlər içərisində isə ən mühümü heç şübhəsiz ki, toplanıb yazılan hədisələrin səhhətinin daha da dərindən yoxlanıb araşdırılmasıdır.

Bu dövrdə hədis elminin inkişafında və hədisələrin yazılıb bir araya toplanmasında dövrün nəhəng hədisşünaslarının böyük rolu olmuşdur. Əbəs deyildir ki, bu gün İslam məzhəbləri içərisində ən böyüyü olan əhli-sünnə məzhəbi şəri məsələlərin istinbatında, əqidəvi məsələlərin əldə edilməsinədə birbaşa məhz bu dövrdə yazılan kitablara müraciət edirlər. Hicri III əsrdə yazılan hədis ədəbiyyatından bəhs edən zaman şübhəsiz ki, bu dövrdə yazılan və bu gün müsəlmanlar içərisində əqidəvi və şəri hökmlərin mənbəsi hesab edilən "Kütubus-sittə"dən (altı kitabdan) ilk olaraq danışmaq lazımdır. Çünki bu əsrdə yaşayıb yaradan digər müəlliflərə nisbətən "Kütubus-sittə" müəllifləri daha ələm və yazdıqları əsərlər isə digər əsərlərə nisbətən daha səhhətli hesab edilməkdədir. "Kütubus-sittə" deyilən hədis əsərlərinin müəllifləri kitablarının səhhətinə görə aşağıdakı kimi sıralanmışdır: 1. Buxari və "əl-Camiüs-səhih" əsəri. 2. Müslüm və "əl-Camiüs-səhih" əsəri 3.Tirmizi və "Sünən" əsəri. 4. Əbu Davud və "Sünən" əsəri. 5. Nəsai və "Sünən" əsəri. 6.İbn Macə və "Sünən" əsəri (9, 93).

Hicri IV əsr İslam elm tarixinin, xüsusilə də hədis ədəbiyyatı tarixinin ən parlaq dönəmlərindən biridir. Çünki məhz bu əsrdə hədis əsərlərinin ən önəmliləri təlif edilmişdir. Əlbəttə ki, bu əsrdən öncəki dönəmlərdə də gözəl əsərlər meydana gətirilmişdir. Lakin hicri IV əsrdə meydana gətirilən əsərlər digər əvvəlki əsərlərdən öz orijinallığı və digər xüsusiyyətlərinə görə ciddi fərqlənməkdədir. Həqiqətən biz ən səhih tarix və digər kitablara nəzər salsaq, bizə məlum olacaqdır ki, Peyğəmbərin (s) dövründə bəzi səhabələr o Həzrətdən (s) eşitdikləri hədisləri yazmış və bir araya toplamışlar. Mənbələr ilk dəfə hədis elmi sahəsində ilk əsərin İmam Əlinin (ə) olduğunu xəbər verirlər. Böyük İslam alimləri, o cümlədən Seyid Sədr "Təsisüş-şiə", Möhsün Əmin "Əyanüş-şiə", Nəcaşi "Rical" adlı əsərlərində yazırdılar: "Həqiqətən hədis sahəsində ilk əsər İmam Əlinin (ə) kitabıdır. O, Peyğəmbərin (s) diktəsi ilə səhifə üzərinə yazmışdır. Orada halal və haram haqqında məlumatlar vardır." Həzrət Fatimənin (ə) "Müshəf"i də önəmli əsərlərdəndir.

Belə ki, bir nəfər Fatimənin (ə) yanına gəlib dedi: "Ey Peyğəmbərin (s) qızı! Peyğəmbərin (s) sənə verdiyi və hazırda bir yerdə qoruyub saxladığın bir şey varmı?" Fatimə (ə) dedi: "ey cariyə! o ipək bezi gətir". Cariyə onu axtardı, lakin tapa bilmədi. Fatimə (ə) dedi: "Vay olsun sənə! Onu axtar. Çünki o mənim üçün Həsən və Hüseyn qədər qiymətlidir" Cariyə onu axtardı və nəhayət süpürüb atdığını yada saldı. Onu atdığı yerdən tapdı və onun üzərində bunlar yazılmışdı: "Məhəmməd peyğəmbər (s) dedi: "Öz qonşusunu himayə etməyən və qonşusu ondan əmin olmayan şəxs mömin sayılmaz. Allaha və axirət gününə inanan kimsə qonşusuna əziyyət etməz. Allaha və axirət gününə inanan şəxs ya xeyir danışsın, yaxudda sussun. Çünki Allah xeyiri sevir. Allah həlimdir, çirkinlikdən uzaqdır. Həyasızlıqdan, ikiüzlük edib istəməkdən, israrla dilənməkdən xoşu gəlməz. Həqiqətən həya imandandır. İman isə Cənnətdədir. Həyasızlıq isə alçaqlıqdan qaynaqlanır. Alçaqlıq da Cəhənnəmdədir" (10).

Bu rəvayətdən belə nəticəyə gəlmək olur ki, həqiqətən hədislərin yazılması Məhəmməd Peyğəmbər (s) tərəfindən həyata keçirilmiş və onun davamçıları o həzrətin hədislərini (sünnəsini) qorumaqda böyük məsuliyyət hiss etmişlər.

Hicri IV əsrdə yazılmış hədis ədəbiyyatını digər hədis kitablarından fərqləndirən xüsusiyyətlərdən biri və ən başlıcası Peyğəmbərin (s) əhli-beytindən (ə) gələn hədislərin də bu əsərlərdə yer almasıdır. Bu və ya digər baxımdan hicri IV və V (miladi X-XI) əsrlərdə yazılan bəzi əsərlər öz orijinallığı və həmçinin zamanın keşmə-keşli yollarından çıxaraq dövrümüzədək gəlib çatması ilə fərqlənməkdədir. Məlum olduğu kimi, imamiyyə məzhəbi Peyğəmbərdən (s) sonra imamət məsələsinə etiqadlıdırlar və bu səbəbdən imamlardan gələn hədisləri də dinin öyrənilməsində əsas sayırlar. Bu barədə böyük alim Cəfər Sübhani yazırdı: "Səhih sənədlə Məsum imamlardan nəql olunan hədis və rəvayətlər şəriət hökümləri üçün dəlil və istinad mənbəyi hesb edilir. Onların məzmununa əməl edilməli və onlara müvafiq olaraq fətva verilməlidir (11, 212).

Deməli, imamiyyə məzhəbinə məxsus alimlər Peyğəmbərdən (s) əlavə, onun pak Əhli-beytindən (ə) gələn hədisləri də dinin əsas qaynağı saymışlar. Buna görə də Peyğəmbərin (s) dövründən ta hicri IV əsrədək çoxlu sayda hədis və digər elmlər sahəsində külli miqdarda əsərlər meydana gətirilmişdir. Bəzi mənbələrdə bu əsərlərin sayı altı min altı yüz (6600) göstərilməkdədir. Bu barədə bizə ən səhih məlumatı nəhəng İslam alimi Seyid Möhsün əl-Əmin verməkdədir. O, yazırdı: "Şiələr Əlinin (ə) dövründən imam Həsən Əskərinin (ə) dövrünədək altı min altı yüz (6600) kitab yazmışlar..." (12, 140).

Bu əsərlər içərisində dörd yüz kitab xüsusi imtiyazlara malkdir və buna İslam alimləri "Üsulu ərbəə-miə" deyirlər. Bu barədə məşhur İslam alimi Şeyx Müfid yazırdı: "İmamiyyə məzhəbi həzrət Əlinin (ə) dövründən imam Həsən Əskərinin (ə) dövrünədək dörd yüz kitab təsnif etmişlər və bunlar da "Üsul" adlanır, çünki bu kitablar "Əsl" hesab edilir" (12, 140).

Lakin bəzi müəlliflər Şeyx Müfiddən fərqli olaraq dörd yüz kitabın məhz imam Sadiqə (ə), yəni təkcə o Həzrətdən gələn hədisələri ehtiva etdiyini deyirlər. Bu görüşü Şeyx Təbərisi və Mühəqqiq əş-Şəhid qəbul etmişlər. Təəsüflər olsun ki, bu əsərlərdən heç biri dövrümüzədək gəlib çıxmamışdır. Buna görə də onların haqqında bəhs etmək və bu əsərləri tədqiq etmək heç kəsə müyəssər olmamışdır. Bəlkə də elə

bu səbəbdəndir ki, imamiyyə məzhəbi öz şəri və dini hökmlərini dövrümüzədək gəlib çıxmış və fundamental əsərlər hesab edilən "əl-Kafi" və "Mən la yəhzuruhül-fəqih" əsərlərindən əldə edirlər. Şübhəsiz ki, bu əsərlər İslam dünyasında böyük şöhrət qazanmış və hədis ədəbiyyatı tarixinin incilərindən hesab edilirlər. Hər iki əsər hicri IV (miladi X) əsrin məhsullarıdır. Onlardan birincisini Şeyx Küleyni (h.265/m.879), ikincisini isə Şeyx Səduq (h.305/m.915**)** qələmə almışdır **(**13, 212; 14, 20).

Şübhəsiz ki, Küleyninin bu əsərinin hədis ədəbiyyatı tarixində böyük önəmi vardır. O, bu əsərində Peyğəmbər (s) və onun pak əhli-beytindən olan Məsum imamların (ə) rəvayətlərini toplamış və onları məlum başlıqlar altında yerləşdirmişdir. Küleyni bu əsərini iyirmi il ərzində yazmışdı (15, 50) . "əl-Kafi" əsərinin yazılmasının səbəbini müəllif aşağıdakı kimi izah edir: "Deyirsən ki: yanımda hər şeyə yetən (kafi) bir kitabın olmasını istəyirəm. Bu kitabda dini elmlərin bütün sahələri yer almalıdır. Belə ki, dini öyrənmək istəyən bir kimsəyə bu kitab yetərli olmalıdır. Doğrunu tapmaq istəyən bu kitaba baş vurmalıdır. Dini öyrənmək, Sadiqeynin (iki Sadiq: İmam Baqir (ə) və imam Sadiq (ə) səhih rəvayətləri altında dini yaşamaq istəyən kimsə, bu kitabda axtardığını tapmalıdır" (16, 25).

Küleynin adı çəkilən əsəri üç hissədən ibarətdir: "Üsulu-kafi", "Fürui-kafi", "Rövzətül-kafi". Əsərin "Üsulu-kafi" hissəsində etiqad və imana aid hədislər, "Fürui-kafi" bölməsində fiqhə aid hədislər, "Rövzətül-kafi" bölməsində isə müxtəlif mövzuları ehtiva edən hədislərə yer verilmişdir. "Kafi" kitabının "Üsul" və "Füru" bölümləri hər ikisi birlikdə otuz beş ana bölümdən ibarətdir. Küleyninin bu əsərində 16199 hədis vardır. Bu görüşü Şeyx Müfid də təsdiqləməkdədir (17, 137).

Hədisşünasların ustadı hesab edilən Şeyx Səduq isə demək olar ki, İslam elmlərinin bütün sahələrinə, o cümlədən fiqh, üsul, hədis, təfsir, əqaid, rical və s. elmlər sahəsində dəyərli əsərlər yazmış və dini ədəbiyyatımızı zənginləşdirmişdir.

Şeyx Səduqun qələmə aldığı əsərlər içərisində heç şübhəsiz ki, ən məşhuru "Kütubu-ərbəənin" ikincisini təşkil edən "Mən la yəhduruhül-fəqih" əsəridir. O, bu əsərində Peyğəmbər (s) və digər Məsum imamların (ə) sözlərini toplamış, onları fiqhi bablar əsasında tərtib etmişdir. Şeyx Səduqun bu əsərindəki hədislərin sayı haqqında alimlər aşağıdakı məlumatı verməkdədirlər: "Mən la yəhduruhül-fəqh kitabı 3913 müsnəd hədis və 2050 mürsəl hədis ehtiva etməkdədir", "əl-Fəqih əsərində 5963 hədis vardır (18, 110). Onlardan 2050-si mürsəl hədisdir" (19, 59).

Bəhrani "Luluə" adlı əsərində yazırdı: "Bəzi şeyxlərimiz əl-Fəqih əsərinin dörd cild olduğunu və 666 babı ehtiva etdiyini söyləyirlər" (8).

Məlum olduğu kimi, hicri beşinci (miladi XI) əsr İslam elmlərinin, xüsusilə də hədis elminin zəngin bir dövrü kimi xarakterizə edilməkdədir. Həqiqətən də hicri II (miladi VIII) əsrdən rəsmən başlanan, əslində isə Peyğəmbər (s) dövründə bir qisim səhabələr tərəfindən qələmə alınmağa başlanan hədis əsərləri demək olar ki, hicrətin beşinci (miladi XI) əsrinədək böyük bir inkişaf yolu keçmiş və öz orjinallığı ilə sonrakı əsrlərdə yazılan əsərlərdən fərqlənmişlər.

Bu əsrin görkəmli Alimlərindən "Nəhcül-bəlağə" əsərinin sahibi Seyyid Rəzini(H.359/m.968), "əl-İrşad" əsərinin müəllifi Şeyx Müfidi (m.945), "Kitabüd-dürər vəl-ğürər" əsərinin müəllifi Seyid Mürtəzanı(H.355/m.966), "Təzhibül-əhkam" əsərinin müəllifi Şeyx Tusini (H.385/m.995) "Sünəni-kübra" əsərinin müəllifi Beyhəqini(H.384/m.994) misal gətirmək olar.

Bu əsrin dəyərli, əvəz edilmz, hədis sahəsindəki misilsiz xidmətlərinə görə “Muhyis-Sünnə” (sünnəni yaşadan – G.İ.) ləqəbi qazanmış Məhəmməd bin Hüseyn bin Məsud əl-Fərra əl-Bəğavini və ona çox şöhrət qazandırmış “Məsabih əs-sünnə” əsərini xüsusi vurğulamaq lazımdır.

İmam Bağavi Xorasanda yetişən böyük hədis alimlərindəndir. Adı Hüseyn bin Məsud bin Muhəmməd, künyəsi isə Əbu Məhəmməddir. Ləqəbi Muhyissünnə və Ruknuddindir. Mənbələrdə haqqında verilmiş rəvayətə görə o, kürk hazırlayıb satmaqla məşğul olardı. Bu sənətlə məşğul olduğu üçün İmam Bağavi həm də “Əl-Fərra” (Kürk düzəldən və satan –G.İ) kimi də tanınırdı. Rəvayətlərə görə atası da bu sənətlə məşğul olduğu üçün İbnul Fərra kimi də tanınırmış. İmam Bağavi Şafei məzhəbi alimlərindən olmuşdur. Hicri 436 (m.1044)-cı ildə Xorasanda Herat ilə Mərva şəhərləri arasında yerləşən Bağ kəndində anadan olmuşdur. İmam Bağavi hicri 516-cı ilin (m.1117) Şəvval ayında Mərvdə vəfat etmişdir. O, ustadi Qadi Hüseynin yanında dəfn olunmuşdur (20, 442).

Məlumdur ki, İmam Bağavi çox sayda əsərlər yazan alimlərdən olmuşdur. Onun təfsir mövzusunda “Məalimüt-tənzil”, hədis şərhində “Şərhüs-sünnə”, hədislər barəsində “Əl-Məsabih”, “Əl-Cəm beynəs-səhiheyn” fiqhdə “Ət-Təhzib” adlı əsərləri vardır. İbn Qadi Şuhbənin də dediyi kimi “Ət-Təhzib” əsərini şeyxi əl-Qadi Hüseynin “Ət-Təliqa” əsərindən ixtisarla qələmə almışdır. Bununla bağlı İbn Qadi Şuhbə yazır: “O, güclü bir kitabdır, tam təhrir olunub, çox hissəsində dəlilləri zikr etmir” (21, 329).

Bundan başqa Şeyxi əl-Qadi Hüseynin fətvalarını topladığı “Məcmuə minəl-fətəva” əsəri vardır. Tacuddin əs-Subkinin dediyinə əsasən onun öz fətvalarını toplayan bir əsəri də vardır. Əsərləri məşhurlaşmış və alimlər tərəfindən qəbul edilmişdir. Əz-Zəhəbi deyir: “Qəsdinin gözəlliyi və niyyətinin səmimiliyinə görə əsərlərinə bərəkət verilmiş və tam bir məqbulluq görmüşdür, alimlər o əsərləri əldə etməkdə bir-biriləri ilə yarışıblar”. Onun həmçinin içində qırx hədis topladığı bir əsəri də vardır. Şeyx Muhəmməd bin Cafər əl-Kəttəni onun həm də “Əl-Ənvar fi şəmailin-nəbiyyil-muxtar” adlı daha bir əsərini də zikr edir. Onun “Məsabih əs-sunnə” əsərini məşhur azərbaycanlı alim Şeyx Vəliyyullah Əbu Abdullah Məhəmməd bin Abdullah əl-Xətib ət-Təbrizi ələ almış və ora hədislər əlavə etmiş, bablara ayırmış, səhabələrin adlarını qeyd etmiş, hədislərə çox yerdə hökm vermiş və hədislərin hansı əsərlərdə keçdiyini zikr etmişdir, beləliklə də tam bir əsər halına salmışdır və bu əsər “Mişkətül-məsabih” adı ilə məşhurdur (21).

İmamBağavinin ən əhəmiyyətli əsərlərindən biri heç şübhəsiz etibarlı hədis qaynaqlarından sənədləri çıxararaq seçdiyi hədislərdən ibarət “Məsabih əs-sünnədir”. Bu əsərin elm dünyasında çox böyük əhəmiyyəti vardır ki, tanınmış Avropa şərqşünası Brockelmann, Bağavinin İslam dünyasındakı şöhrətini “Məsabih əs-sünnə” adlı əsərinə borclu olduğunu ifadə etməktədir (22,48).

Bağavi, müxtəlif qaynaqlardan toplamış olduğu hədisləri bir araya gətirməklə yazmış olduğu bu əsərin bənzərlərini hədis tarixində ibnul Əsir əl-Cəzərinin (h.606 /m.1209) “Camiul-üsul”, Nəvəvinin (h.676/m.1277) “Riyazüs-salihin” adlı əsərlərində də görürük. Katib Çələbi (1067 / 1677) “Yığma mahiyyətində yazılan əsərlərin ən gözəli Bağavinin “Məsabih” adlı əsəridir. Çünki onun tərtibi çox gözəldir. Hədislər yerli yerində yığılmışdır.Bir başqası hər hansı bir babın yerini

dəyişdirməyə çalışsa Bağavidən daha uyğun bir yerə qoymazdı deyərək əsəri tərifləyir" (23, 1701-1702).

Bağavi "Məsabih əs-sünnə" yazmış olduğu müqəddiməsində əsərini Allaha itaət edənlərə kömək etmək üçün yazdığını bildirməklə, hədislərin sənədlərini (lüğətdə dirək, dayaq və s. mənaları ifadə edir. İstilahi mənada isə - hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsinə "sənəd" deyilir – G.İ.) uzatmaqdan qoruduğu və hədis imamlarının rəvayətlərinə istinad etdiyi üçün hədislərin ilk ravilərini belə yazmadığını bildirir. Əsərində zəif hədislərə işarə etdiyini və əsərinə movdu(uydurma), münkər (etibarsız ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis "münkər" adlanır –G.İ.) hədisləri yazmadığını bildirir. "Məsabih əs-sünnənin" başda Süleymaniyyə kitabxanası olmaq üzrə dünyanın bir çox yerlərində yazılı nüsxələrinin olduğu aydındır. Bununla belə əsər bir neçə dəfə çap olunmuşdur. "Məsabih əs-sünnə" 1877-ci ildə İstanbulda, 1900 və 1935-ci illərdə isə Qahirədə çap edilmişdir (24, 235).

**Ədəbiyyat:**


1. Sübhi əs-Saleh. "Hədis elmləri və Hədis istilahları", Zəhəbi, "Təzkirətül-hüffaz", c. I
2. Xatib Bağdadi. "Təqyidül-elm", "Cameu bəyanil-elm". C. I
3. İbrahim Canan, "Hədis üsulu və hədis tarixi"
4. Səhihi-Buxari, c. I
5. İbrahim Canan, "Hədis üsulu və Hədis tarixi". - İstanbul, 1998.
6. Prof.Dr. Talat Köçyigit, "Hədis istilahları". - İstanbul, 2002.
7. Əbu isa ət-Tirmizi "Sünən",c.XIII .
8. Qutül-Qutub, c. I, səh. 324-325; Ali Yardım, Hədis I-II .
9. İbrahim Quliyev "Hədisşünaslığın əsasları" nəş II. – Bakı, 2016.
10. Məhəmməd bin Yaqub Küleyni, "Üsuli-kafi", c. I.
11. Cəfər Sübhani "İslamda əqidə əsasları".
12. Möhsün əl-Əmin "Əyanüş-şiə",Beyrut, 1403 h/q ,c. I.
13. Prof. Dr. Həsən Cirit, Küleyni və əl-Kafisi // BDU İlahiyyat fak. Elmi məcmuəsi, Mart-2005. – S. 212.
14. Şeyx Səduq "Mən la yəhduruhül-fəqih", Tehran, 1405 h/q. c. I,
15. Seyid Əbdülqasim Xoi, "Möcəmu ricalil-hədis", Qum, 1410 h/q. (dördüncü nəşr).
16. Məhəmməd bin Yaqub Küleyni, "əl-Kafi", c. I Tehran, 1408 h/q.
17. Əli Əkbər Dehxuda, "Lüğətnamə".
18. Cəfər Sübhani, "Üsulul-hədis və əhkamuhu". 5-ci nəşri. - Qum, 1420 h/q.
19. Şeyx Səduq, Mən la yəhduruhül-fəqih. - Tehran, 1405 h/q. c. I.
20. Şəmsuddin Muhəmməd bin Əhməd bin Osman əz-Zəhəbi "Əs-siyər liz-Zəhəbi" Müəssisətu ər-risalə, 1417\1996, c.XXIX
21. www.favaid.com
22. İslam Ensiklopediyası. c. 38, TDV, İAM. - İstanbul, 2014. – S..570.

23. Katip Çələbi "Kəşfuz-zunun". - İstanbul, 1971, c. I.
24. Carl Brockelman. "Tarixu əl-ədəbi əl-arabi" c. VI.

*Гюльага Исмаилов*

**СОЧИНЕНИЕ И КЛАССИФИКАЦИЯ ХАДИСОВ**
**Резюме**

В данной статье повествуется о собрании, сочинении, а также последующей классификации священных хадисов, написанных в средние века. Помимо этого, в статье подробно описаны труды знаменитых мусульманских теоретиков, таких как Кулейни, Асбахи, Багави и т.д. Стоит также отметить, что в данной статье упомянутые философы представляются, как крупнейшие ученые своего времени, являющиеся мусульманскими муфтиями, исследователями, а самое главное имамами науки о хадисах.

*Gulagha İsmayilov*

**COMPOSITION AND CLASSIFICATION OF HADEETH**
**Summary**

This article provides detailed information about the collection, composition, and the subsequent classification of the sacred hadeeth written in the Middle Ages. In addition, the article describes the works of famous Muslim theorists, such as Kulayni, Asbakhi, Bagavi, etc. It is also worth noting that the above-mentioned philosophers are represented not only as the greatest scientists of their time, but also as Muslim muftis, researchers, and most importantly imams of the science of hadith.